# 80 İLİN TƏNTƏNƏSİ

*Bu bu günlərdə dəyərli elm adamı, ictimai xadim, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Vaqif Bilas oğlu Şadlinskinin anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 50, İnsan anatomiyası kafedrasına rəhbərlik etməsinin 25 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək.*

Dünyəvi söz ustası, söz dahisi və sözə yüksək dəyər verən M. Füzuli yazırdı: "Elm haqqa, həqiqətə aparan bilgilər sistemidir". Sözün həqiqi mənasında bu bilgilər sisteminin fədakarlarından biri də professor Vaqif Şadlinskidir. Vaqif müəllim həm də böyük rus alimi Landaunun qeyd etdiyi kimi qazancını zərrələrdən başlanğıc götürən elm mənbəyinin külliyatından, nəsibini isə uzunmüddətli gərgin araşdırmalarından alanlardandır.

Bu günə kimi oxuduqlarım, gördüklərim və eşitdiklərim məni, dünyanın ən müdrik şəxsiyyətləri həyatını xalqının gələcəyinə, fəaliyyətini isə Vətəninin inkişafına həsr edənlərdir, qənaətinə gəlməyə sövq etdi. Böyük fərəh hissi ilə qeyd etmək istərdim ki, ömrünün düz 50 ilini tələbələrinə elmi biliklərin aşılanmasına, layiqli tibbi kadrların hazırlanmasına, gələcəyin yüksək mənəviyyatlı həkim kontingentinin formalaşmasına həsr edərək daim bu məramla əlində qələm, zəkasında bilik, ürəyində sevgi ilə əsil həkim hazırlamaq arzusuna doğru irəliləyənlərdən biri də hamımızın sevimlisi əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Vaqif Şadlinskidir. Beləliklə, belə bir ziyalı alim və kamil insan haqqında bildiyim həqiqətlərlə qarşınızdayam.

Vaqif Şadlinski 1940-cı il, yanvar ayının 24-də dəyərli Şadlinskilər ailəsində Qərbi Azərbaycanın Vedibasar Mahalında yaşamaq haqqı qazanıb. Yaxşı deyiblər ki, ömrü şərəfləndirmək ilk əvvəl tərbiyə almaqdan, oxumaqdan, zəhmət, əmək məktəbindən keçməklə olur. Respublikamızda böyük nüfuz sahibi olan ziyalılardan biri Bilas müəllimin ailəsin böyüyərək əməyə, zəhmətə hörmət, elmə, təhsilə rəğbət, soy kökünə sədaqət ru-hunda tərbiyə alan gənc Vaqif, 1963-cü ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Stomatologiya fakültəsinə daxil olur. Onun elmə və ictimai işlərə olan sonsuz həvəsi İnstitut rəhbərliyinin gözündən yayınmır və o, hələ tələbə ikən təhsil aldığı institutun Tələbə Həmkarlar İttifaqı Ko-mitəsinə sədr seçilir. 1968-ci ildə İnstitutu fərqlənmə diplomu ilə bitirən V. Şadlinski 1970-ci ilə qədər Terapevtik sto-matologiya kafedrasında stomatoloq kimi çalışır. Lakin anatomiya elminə olan sonsuz maraq 1970-ci ildə onu insan antomiyası kafedrasına çəkib gətirir.

İnsan ömrü yaxşı əməllərlə – ən yüksək mərtəbə sayılan elmlə zənginləşdikcə həyat da zənginləşir və inkişaf edir. Bunların mahiyyətini dərindən dərk edərək M.Ş.Vazeh yazırdı: "Bəşəriyyətin rövnəqi olan insan və insan mənəviyyatının dəyəri olan elm. Bu iki varlıq və məfhüm yaxınlaşdıqca nura qərq edir ətrafı". Bu gerçəkliklərə baxanda elmin işığı elm adamlarının əli ilə daha da gur yanır. Ürəklərə, zehinlərə nur və şəfa verənlərdən biri də böyük fərəh hissi ilə haqqında Sizə söz açmaq istədiyim, sözün həqiqi mənasında əsil vətəndaş və İnsan titulunu Tanrının mükafatı kimi qazanmış Vaqif müəllimdir. Vaqif müəllim hər şeydən əvvəl yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi, yüksək ixtisaslı kadr yetişdirmək, Respublikamızın və çalışdığı Tibb Universitetinin ictimai həyatında yaxından iştirak etmək vəzifəsini özünün elmi-pedaqoji fəaliyyətinin preoritet istiqamətlərindən biri hesab edir.

Müdriklər deyib ki, "Günəş qaranlığı öz zərrin şəfəqləri ilə yarıb dünyaya işıq verirsə, zəka günəşinin zərrələri də elm qaranlıqlarını sökür, insanlığa nur paylayır. Alimlər də yer

günəşidir". Vaqif müəllim də belə bir işıqlı zəka sahiblərindəndir.

O, uzunmüddətli gərgin əməyi nəticəsində 1982-ci ildə "İnsanın gözyuvasıaltı sinirinin və aşağı alveol sinirinin topoqrafiyası və kötükdaxili quruluşu" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, onlarla anatom və stomatoloqlar üçün yeni elmi istiqamətin əsasını qoydu. Onu yaxşı tanıyanlar bilir ki, o, heç vaxt öz nailiyyətləri ilə kifayətlənməyərək ətrafındakılara, yazıb - yaratmaq həvəsi ilə yaşayanlara təmənnasız köməklik göstərməyi özünün mənəvi borcu hesab edir.

Vaqif müəllimin diqqət çəkən təqdirəlayiq xüsusiyyətlərindən biri də onun təkcə bu günü yox, həm də gələcəyi düşünməsidir. Belə ki, o, sabahın anatomlarını bu günkü tələbələrin və gənc həkimlərin arasında axtarı üzə çıxarmaq məqsədilə Tələbə Elmi Cəmiyyətinin inkişafına, eləcə də kafedraya rotasiya məqsədilə gələn rezidentlər üçün yaradılmış şəraitə xüsus fikir verir. Son illərdə hər il kafedrada Tələbə Elmi Cəmiyyətinin konfranslarının keçirilməsi, rezidentlər üçün tərtib olunmuş dərs vəsaitləri də sadalananların bariz nümunəsidir. Onu da qeyd etmək lazım-dır ki, bu yaxınlarda rus bölməsinin rezidentləri üçün professor V.Şadlinskinin rəhbərliyi altında prof. A.B. İsayev, prof. B.M. Hüseynov və dos. Ş.İ. Qasımovun həm-müəllifliyi ilə tərtib olunmuş vəsaitə İ.Seçenov adına 1 saylı Moskva Tibb Universitetinin anatom mütəxəssisləri tərəfindən yüksək səviyyəli rəy verilmişdir. Eyni zamanda bu il müalicə-profilaktika, stomatologiya və əczaçılıq fakültəsinin tələbələri üçün azərbaycan, rus və ingilis dilində həmmüəlliflərlə birlikdə yenidən işlənmiş və əlavələr olunmuş dərsliklər çap olunmuşdur.

Qeyd etmək lazımdır ki, Vaqif müəllim təkcə elmi-pedaqoji fəaliyyəti ilə yox, həm də gözəl təşkilatçı və ictimai xadim olması ilə də fərqlənir. O, rəhbərlik etdiyi dövrdə kafedrada əsaslı təmir işləri aparmış, ən yeni ədəbiyyatlarla zəngin olan kitabxana, elmi-tədqiqat laboratoriyaları və yeni muzeylər yaratmış (o cümlədən sahəsi 220 m$^2$ olan "Dayaq-hərəkət aparatı" muzeyi), dərs otaqlarını və mühazirə zallarını müasir kompüter və monitirlarla zənginləşdirmişdir.

2016-cı ildə prof. V.B. Şadlinski kafedramızın tarixinin bir hissəsini təşkil edən və nadir preparatlar və arxeoloji tapıntılarla zəngin olan tədris muzeyinin dövlət muzeyləri reyestrinə daxil edilməsinin vacibliyi haqqında ATU-nun rektoru professor G.Ç.Gəraybəyliyə təqdimat məktubu ilə müraciət etdi. Bunun nəticəsi olaraq 2017-ci ilin mart ayının 1-də Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının Tədris Muzeyi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edildi.

Bu məqamda müdriklərin bir deyimi yada düşür: - "Dünyada ən böyük iztirab fəaliyyətsizlikdən irəli gəlir. İnsan boş oturmamalı, hər hansı bir sahədə çalışaraq fəaliyyət göstərməlidir". Vaqif müəllim də fəaliyyətsizliyi sevməyənlərdəndir. Ona görə də o, morfologiya sahəsində çalışan alimlərlə bir yerdə fəaliyyət göstərmələrinin vacibliyini bilərək 2018-ci ildə Azərbaycan Respublikasının səhiyyə naziri professor O.K.Şirəliyevə və ATU-nun rektoru professor G.Ç.Gəraybəyliyə Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin yaradılması və həmin Birliyin nəzdində Nəzəri, klinik və eksperimental Morfologiya Jurnalının təsis edilməsi zərurətinin çoxdan yaranması haqqında müraciət etdi. Qısa müddət ərzində səhiyyə naziri professor O.K. Şirəliyevin və rektor professor G.Ç. Gəraybəylinin yaxından köməklikləri sayəsində həmin Birlik Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alındı və təsdiq edildi, bu Birliyin nəzdində isə "Nəzəri, klinik və eksperimental Morfologiya Jurnalı"nın təsis edilməsinə icazə verildi.

Kafedranın gündəlik problemləri içərisində prof. V.Şadlinskini narahat edən məsələ-

lərdən biri də kafedranın zirzəmisinin yenidən qurmasını həyata keçirmək idi. Ona görə də 2018-ci ilin yayında onun təqdimatı əsasında Azərbaycan Respublikası səhiyyə naziri professor O.K.Şirəliyevin və Azərbaycan Tibb Universitetinin rektoru professor G.Ç.Gəraybəylinin razıl ilə kafedranın zirzəmisində yerləşən otaqlarda ən yeni texnologiyalardan istifadə etməklə yenidənqurma – bərpa işləri aparıldı, orada olan otaqlar təmir edilib yüksək təchizatlı yeni tədris otaqları səviyyəsinə çatdırıldı. Hal-hazırda həmin zirzəmidə 80 nəfərlik mühazirə zalı, seksiya otaqları, elmi-tədqiqat laboratoriyaları fəaliyyət gös-tərir.

1991-ci ildə SSRI-nin süqutundan sonra Azərbaycanın Morfologiya məktəbi ilə indiki MDB ölkələri arasında demək olar ki, elmi əlaqələr kəsilmişdi. Müstəqil respublikamızın anatom, histoloq və embrioloqları, eləcə də Bakıda, Naxçıvanda və Gəncədə elmi-pedaqoji fəaliyyətlə məşğul olan bioloqlar bu əlaqəni bərpa etmək arzusunda idilər. Belə bir mühüm vəzifənin öhtəsindən yalnız Vaqif müəllim gələ bilərdi. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, prof. V.Şadlinski köhnə əlaqələrin bərpasının şəxsi təşəbbüskarı olmuş və tədricən bu əlaqələri nəinki MDB məkanında, eləcə də ABŞ-da, Türkiyədə, İsraildə, Bolqarıstanda, Rumıniyada, İspani-yada və başqa ölkələrdə yüksək səviyyədə inkişaf etdirməyə nail ola bilmişdir. Onun gərgin əməyi sayəsində ə.e.x., prof. K.Ə. Balakişiyevin 90, 100, 110 illik yubileyi, morfoloji ka -fedraların 80, prof. G.A. Hacıyevin 80, ə.e.x., prof. R.Ə. Əsgərovun 80 illk yubileyi münasibətilə keçirilən konfranslarda Rusiya, Almaniya, Türkiyə və Gürcüstan alimlərinin iştirakı bu tədbirlərin Beynəlxalq status almasına imkan verdi. O, Beynəlxalq səviyyəli elmi forumlarda morfologiya məktəbinin görkəmli alimləri ilə istər elmi, istərsə də təşkilati sahədə müzakirələr apararaq onları kafedraya dəvət edir. Kafedraya gələn qonaqlar tədrisin təşkili, elmi-tədqiqat laboratoriyaları, anatomiya muzeyləri ilə yaxndan tanış olduqdan sonra rəy kitablarında böyük məmnuniyyətlə öz ürək sözlərini yazmamış kafedranı tərk etmirlər.

Kafedra müdiri kimi fəaliyyət göstərdiyi 25 il ərzində o, 7 nəfər tibb üzrə elmlər doktoru, 22 nəfər tibb üzrə fəlsəfə doktoru yetişdirib. Hal-hazırda kafedrada 2 tibb üzrə elmlər doktoru, 5 tibb üzrə fəlsəfə doktoru dissertasiya işi müfəffəqiyyətlə davam etdirilir. Onun tərəfindən anatomiya elminin müxtəlif sahələrinə dair 20 monoqrafiya, 32 dərslik, 28 dərs vəsaiti və tədris-metodik vəsait, 600-ə yaxın elmi əsər çap olunub. Azərbaycanlı alimin çap olunmuş elmi əsərlərinə 500-ə qədər xarici alimlər tərəfindən istinad edilmişdir.

Vaqif müəllim ATU-nun ictimai həyatın -da yaxından iştirak edərək, 1988-1991-ci illərdə I müalicə-profilaktika fakultəsində dekan müavini, 1992-1994-cü illərdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, 1994-1995-cı illərdə ümumi işlər üzrə prorektoru, 1996-2001 ci illərdə tədris işləri üzrə prorektoru vəzifələrində çalışıb. Hal-hazırda İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri vəzifəsini layiqincə yerinə yetirir, ATU-nun Böyük Elmi Şurasının üzvü, Morfoloji fənlər üzrə ixtisaslaşmış dissertasiya şurasının sədridir. Vaqif müəllim həm də Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin sədri və yeni təşkil olunmuş "Nəzəri, kliniki və eksperimental morfologiya jurnalı"nın təsisçisi və baş redaktorudur. Prof. V.B. Şadlinski bu yaxınlarda Yapoiniyada nəşr olunan nüfuzlu jurnalardan birinin – "Neurology and Neuroscience Reports" jurnalının şef redaktoru, Beynəlxalq Anatomlar Assosiasiyaları Fedrasiyasının üzvü seçilib.

V.B. Şadlinski Respublikada dərc olunan bir sıra elmi jurnalların – o cümlədən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Azərbaycan Tibb Jurnalı", Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil" jurnalının, Azərbaycan Tibb Universitetinin "Sağlamlıq" jurnallarının redaksiya şurasının üzvü-

dür. Həmçinin o, xarici ölkələrdən Amerika Birləşmiş Ştatlarında dərc edilən "Journal of Neuroendocrinology Research", Almaniyada dərc olunan "Archiv Euromedica", Yaponiyada dərc olunan "Neurology and Neuroscience Reports", Rusiyada nəşr olunan "Морфология", "Морфологические ведомости", "Медицинский вестник Башкортостана", "Анатомия и гистопатология, Gürcüstanda buraxılan "Экспериментальная и клиническая медицина" jurnalların redaksiya şurasının və redaksiya heyətinin üzvüdür.

Hal-hazırda professor V.B. Şadlinski vətənimizin sərhədlərindən kənarda da, o cümlədən Amerika Birləşmiş Ştatlarında, Rusiya Federasiyasında, Türkiyədə, İsraildə, Almaniyada, İtaliyada, Fransada, Macarıstan-da, Bolqarıstanda və b. ölkələrdə keçirilən elmi toplantılarda ölkəmizi layiqincə təmsil edir.

Professor V.B. Şadlinski müxtəlif illərdə Rusiya Elmləri Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının həqiqi üzvü seçilib. Həmçinin BMT-nın təltiflər şurası tərəfindən I dərəcəli Hippokrat ordeninə, Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının qızıl medalına, Avropa Təbiət Elmlər Akademiyasının Rəyasət heyəti tərəfin -dən "Albert Şveytser" adına gümüş medalına, Avropa Elmi Cəmiyyətlərinin Rəyasət heyəti tərəfindən elm sahəsində göstərdidyi əvəzsiz töhfəsinə görə "Avropanın Fəxri Alimi" diplomuna və "Robert Kox" medalına layiq gorulüb.

Aktiv ictimai mövqeyinə görə respublika ictimaiyyəti professor. V.B. Şadlinskini yaxından tanıyır. Onun televiziya və radio verilişlərində, mətbuat səhifələrində tez-tez çıxışları bunu bir daha sübut edir. Onun vətəndaşlıq mövqeyi "Qarabağ böhranı" dövründə özünü daha parlaq göstərmişdir. O, cəbhə bölgələrinə dəfələrlə gedərək, əhaliyə humanitar yardım təşkil edib. V.B. Şadlinski, həmçinin, Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal iştirak edib və aktiv üvlərindəndir. Vaqif müəllimi dünyanın ən xoşbəxt insanlarından hesab etmək olar. Hər şeydən əvvəl o, 1998-ci il Prezident seçkilərində Ulu öndər Heydər Əliyevin etibarlı nümayəndəsi olub. 2000-ci ildə Ulu öndərin sərəncamı ilə ona «Respublikanıın Əməkdar Həkimi», 2010-cu ildə isə müstəqil Azərbaycanın möhtərəm cənab Prezidenti İlham Əliyevin sərəncamı ilə ona «Əməkdar elm xadimi» fəxri adı verilib.

Deyirlər ki, İnsan yazdığı hər sözə məsuliyyətli olduğu halda, yazdıqlarını bitkin halda ortaya çıxara bilir. Mən də belə bir məsuliyyət hissi ilə Vaqif müəllimi kəşf etməyə və onun haqqında bildiklərimin bir hissəsini Sizə təqdim etməyə çalışdım. Hamımızın sevimlisi, əziz müəllimimiz, ictimai xadim, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Rusiya Elmlər akademiyasının akademiki, tibb üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor Vaqif Bilas oğlu Şadlinskini anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 50, kafedraya rəhbərlik etməsinin 25 illik yubileyləri münasibətilə ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedra-sının kollektivi adından səmimi qəlbdən təbrik edir, ona uzun və sağlam ömür, aydın zəka, elmi-pedaqoji fəaliyyətində və gənc nəslin təlim-tərbiyəsi işində uğurlar arzulayıram.

*Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, tibb üzrə elmlər doktoru Ağasəmid İsayev*